# Heydər Əliyevin milli inkişaf modeli və strategiyası

**Tariximizdə hər birinin öz yeri olan dahi şəxsiyyətlərimiz dövlətçilik ənənələrimizin yaranmasında, Azərbaycanın intibahında misilsiz xidmətlər göstərmişlər. Bu sırada ümummilli liderlik zirvəsinə ucalan, hələ sağlığında canlı əfsanəyə çevrilən yalnız Heydər Əliyev olmuşdur. Qüdrətli şəxsiyyət Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən canlı təcəssümüdür. Ötən əsrin 60-cı illərinin sonunda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi xalqa özünün zəngin dövlətçilik ənənələri əsasında gələcək müstəqilliyinə etibarlı zəmin formalaşdırmaq şansı yaratdı. 2003-cü ildə ölkə rəhbərliyinə qayıdan dahi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi, tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail oldu.**



1991-ci ildə öz suverenliyini bəyan etmiş Azərbaycan elə müstəqilliyinin ilk illərində iqtisadi və siyasi çətinliklərlə üzləşdi. Bu dövr ərzində ÜDM-in həcmi hər il orta hesabla 13-20 faiz azalırdı və artıq 1994-cü ildə ÜDM-in həcmi 1990-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 66,6 faiz səviyyəsində idi. 1994-cü ildə inflyasiya göstəricisi 1763,5 faizə çatmışdı, büdcə kəsiri 10 faizdən çox idi və dövlətin valyuta ehtiyatları tükənmişdi. Ermənistanın respublikamıza təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi və 1 milyondan artıq azərbaycanlının doğma yurdlarından qovularaq öz vətənində qaçqına çevrilməsi ölkədə sosial-iqtisadi böhranı daha da kəskinləşdirmişdi.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra ölkədə siyasi sabitlik yarandı, iqtisadi tənəzzülün qarşısı alındı və genişmiqyaslı islahatlar həyata keçirildi. Azərbaycanda varisliyi qoruyub saxlayan, ən yaxşı ənənələri novatorluqla əlaqələndirən modernləşmə üçün prinsipial imkan yarandı. Ölkədə aparılan mütərəqqi dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli —Azərbaycan modeli formalaşdı. Bu iqtisadi inkişaf modelinin fərqləndirici xüsusiyyətlərini isə inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan cəsarətli qanunların qəbul olunması, milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə əsaslanması təşkil edir. XX əsrin 90-cı illəri modernləşmənin yeni mərhələsi, cəmiyyətin iqtisadi transformasiyası illəri kimi tarixə düşmüşdür və bu dövrdə mahiyyət etibarilə tamamilə yeni Azərbaycan yaranmışdır.

Məhz 1995-ci ildən sonra ölkədə daxili siyasi sabitlik yaranması sayəsində milli iqtisadi təfəkkür formalaşdı. Təcrübə göstərdi ki, bazar islahatlarının yönümü, templəri və məzmunu siyasi meneccerizmin suverenliyi, dövlətin iqtisadi kursu, millətin idarəetmə kapitalı və sair amillərdən, ilk növbədə isə xarizmatik liderin olmasından asılıdır. O dövrdə çoxukladlı iqtisadiyyatın yaradılması, özəlləşdirmə və torpaq islahatı, maliyyə-vergi və idarəetmə sistemlərinin islahatı, bazar münasibətlərinin genişlənməsi—bütün bu konkret tədbirlər Azərbaycanda iqtisadi modernləşmənin mahiyyətini təşkil edir. İqtisadiyyatın məhz iqtisadi metodlarla idarə olunması, bazar iqtisadiyyatı münasibətlərinin düzgün qurulması ulu öndər Heydər Əliyevin gərgin əməyi və müstəsna şəxsi rolu sayəsində mümkün oldu.

Azərbaycan iqtisadiyyatının inkişafında neft sənayesi mühüm yer tutur. 90-cı illərdə bütövlükdə ölkə iqtisadiyyatında olduğu kimi, neft sektorunda da istehsalın kəskin azalması müşahidə olunurdu. Azərbaycan iqtisadiyyatında neft sənayesinin strateji əhəmiyyəti, milli iqtisadiyyatın struktur islahatlarında neft sənayesinin müstəsna rola malik olması bu sahədə məxsusi dövlət strategiyasının yaradılmasını və həyata keçirilməsini tələb edirdi. İslahatlar, faktiki olaraq, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə başladı. 1998-ci ildən başlayaraq Azərbaycan Respublikasında neft hasilatı artmağa başlamışdır. Belə ki, 1997-ci ildə ölkədə 9,0 milyon ton neft çıxarıldığı halda 1998-ci ildə 11,3 milyon ton, 1999-cu ildə 13,8 milyon ton, 2000-ci ildə 14,0 milyon ton, 2001-ci ildə 14,8 milyon ton və 2002-ci ildə 15,3 milyon ton neft çıxarılmışdır. 1994-cü ildən sonra Azərbaycan neft hasilatına dair təqribən 50 milyard dollar investisiya qoyulması nəzərdə tutulan sazişlər imzalanmışdır. Neft hasilatının artırılması ölkə iqtisadiyyatının inkişafına güclü təkan vermişdir. Miqyasına görə analoqu olmayan "Əsrin müqaviləsi"ndən az sonra Azərbaycanda neft yataqlarının müştərək kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə bir-birinin ardınca daha 21 kontrakt imzalanmışdır. Beləliklə, Azərbaycanın neft sektoru öz inkişafının yeni mərhələsinə qədəm qoymuş və Azərbaycanın iqtisadiyyatında neft sektorunun rolu xeyli dərəcədə artmışdır. Bütün bunlar ölkəmizdə insanların iqtisadi-sosial vəziyyətlərinin yaxşılaşdırılmasını təmin etmiş, müstəqilliyimizin daha da möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Bildiyimiz kimi hər bir müstəqil dövlətin mövcudluğunu, suveren dövlət kimi yaşamasını, strateji seçimi və inkişaf yolunu onun Milli Konstitusiyasının olması müəyyənləşdirir. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz strateji inkişaf yolunu, insan hüquq və azadlıqlarının ali dəyər hesab edildiyi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçdi. Ulu öndərimizin banisi olduğu, onun bilavasitə iştirakı ilə ərsəyə gəlmiş və ümumxalq səsverməsi yolu ilə 1995-ci il noyabr ayının 12-də qəbul edilmiş ilk Milli Konstitusiyamız, şübhəsiz ki, bütün aparılan islahatların yönünü müəyyənləşdirmişdir. Bu böyük tarixi, siyasi-hüquqi ali sənəd ulu öndərin gərgin əməyinin bəhrəsi kimi Azərbaycanın müstəqillik yolunda daha inamla addımlamasının, ərazi bütövlüyümüzün, təbii sərvətlərimizin, dinimizin, dilimizin, mədəniyyətimizin və digər dəyərlərimizin toxunulmazlığının, insan və vətəndaş azadlığının, firavanlığının təminatçısıdır.

Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə müstəqil Azərbaycanda həyata keçirilən siyasi və demokratik islahatlar Azərbaycanın Avropa Şurası və Qərbin digər siyasi və iqtisadi strukturları ilə sıx əməkdaşlığına şərait yaratmışdır. Təbii ki, bütün bunlar Azərbaycanın Qərbə geniş inteqrasiyasını sürətləndirmişdir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dönəmində iqtisadiyyatın ən aparıcı sahələrindən biri olan ölkə nəqliyyat sektoruna, o cümlədən dəmir yolunun inkişafına və onun müasir standartlar səviyyəsində olmasına daim diqqət və qayğı ilə yanaşmışdır. Müstəqilliyimizin ilk illərində böyük çətinliklərlə üzləşən və demək olar ki, iflic vəziyyətinə düşən Azərbaycanın yol-nəqliyyat sektoru dərin böhran, tənəzzül içərisində idi. 1993-cü ilə kimi ölkəyə rəhbərlik edən o zamankı səriştəsiz iqtidar ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən bu mühüm sahənin inkişafı üçün heç bir iş görməmişdi. Yalnız Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə gəlişindən sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi nəqliyyat sektorunda da, o cümlədən dəmir yolu nəqliyyatında da inkişaf mərhələsi başladı. Az bir zaman kəsiyində infrastrukturun yeniləşməsi işlərinə başlanıldı, inkişaf və tərəqqiyə nail olundu. Heydər Əliyev bilirdi ki, ölkənin müasir nəqliyyat sisteminin olması iqtisadi inkişafımız üçün ən əsas şərtlərdəndir. Bunun önəmini vurğulayan ulu öndər demişdir: "Yol iqtisadi inkişafımızın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz". Qeyd edək ki, 1995-ci ildən başlanan iqtisadi inkişafda, ölkənin dəmir yolu infrastrukturunun inkişafının da ölkə başçısı tərəfindən diqqətdə saxlanılması öz müsbət təsirini göstərmişdir.

Təsadüfi deyil ki, dəmir yollarını iqtisadiyyatın şah damarı adlandırırlar. Azərbaycanın yerləşdiyi coğrafi ərazi, güclü iqtisadiyyatı, iqtisadi əlaqələri hər sahədə olduğu kimi, dəmir yolu nəqliyyatının sürətli inkişafı üçün münbit şərait yaratmışdır. Son illərdə təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş köklü islahatların aparılması, çevik və innovativ yeni idarəetmə sisteminin tətbiq edilməsi bu sahədə keyfiyyətcə yeni inkişaf dönəminin başlanmasına səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ötən illər ərzində də dəmir yolu sistemində ardıcıl olaraq inkişaf və modernləşmə tədbirləri uğurla həyata keçirilmişdir. Son illər ölkə Prezidenti İlham Əliyevin bu vacib sahəyə göstərdiyi xüsusi diqqət və qayğı dəmir yolunun dinamik inkişafı üçün böyük imkanlar yaratmışdır. Dövlətimizin başçısının səyi nəticəsində ölkəmizin dəmir yolları müasir dövrün tələblərinə uyğunlaşdırılmış, onun maddi-texniki bazası əsaslı şəkildə möhkəmləndirilmiş, təşkilat-idarəetmə strukturu köklü islahatlar aparmaqla yenidən qurulmuşdur. Qeyd etmək lazımdır ki, son iki ildə ölkə polad magistralındakı innovativ və yeniliklərin təməlində cənab Prezidentin daimi diqqət və qayğısı dayanır. Onun titanik fəaliyyəti və səyi nəticəsində Azərbaycan həm regionda, həm də dünyada logistik mərkəzə çevrilib. Dünyanın bir çox ölkələrinin dövlət başçıları ilə görüşü və əldə olunmuş razılaşmalar, o cümlədən Rusiya dövlət başçısı, İran İslam Respublikasının prezidenti, Gürcüstan, Çin dövlət başçısı və sair, beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsini mümkün etmişdir. Bu barədə danışarkən qeyd etmişdir ki, "Şərq-Qərb" dəhlizinin yaradılmasında biz fəal rol oynayırıq və biz özümüzü daha gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə böyük iqtisadi mənfəət gətirəcək və bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq, "Şimal-Cənub" dəhlizinin yaradılması üçün də məhz Azərbaycan təşəbbüs göstərmişdir ki, burada da işlərin daha da sürətləndirilməsi məqsədilə Prezident Sərəncam imzalamışdır. Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirən bu dəhliz tam gücüylə fəaliyyətə başladıqdan sonra Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Həmin dəhliz Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımalarını, istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəliri xeyli dərəcədə artırmağa səbəb olacaqdır. Cənab Prezident İlham Əliyevin bu il mart ayının 5-də İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində keçirilmiş görüşlərin nəticəsi olaraq, "Azərbaycan Dəmir Yolları" QSC-nin bu ölkənin Dəmir Yolları Şirkəti arasında dəmiryolu əlaqəsinin birləşdirilməsinə dair Anlaşma Memorandumu imzalanmışdır. Ötən ilin fevralında Tehran şəhərində Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında hökumətlərarası sazişin imzalanması uzun illərdir blokada şəraitində yaşayan Naxçıvan MR-lə dost və qardaş İran arasında dəmir yolu əlaqəsinin bərpa edilməsinə imkan vermişdir. Keçən ilin 29 dekabrında Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı fəaliyyətə başlamışdır. Bu məqsədlə Bakı şəhərindən Naxçıvana hər biri 36 yerlik kupe tipli 3 müasir tipli sərnişin qatarı göndərilmişdir. Həftədə 2 dəfə yola çıxan Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı ilə il ərzində 12 min sərnişin daşınması nəzərdə tutulmuşdur.

Gələcəkdə İranın Aslandüz şəhəri ilə Azərbaycanın Horadiz şəhəri arasında dəmir yolu xəttinin inşa edilməsi də nəzərdə tutulur. Bu günün ən iri və mühüm layihələrindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsidir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın tarixində ən parlaq layihələrdən biridir, əldə etdiyi böyük uğurlardandır. Oktyabr ayının 30-da Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı münsibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim keçirildi. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın baş nazirləri və digər ölkələrin rəsmi nümayəndələri iştirak etmişdir. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, bu layihə strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton və ondan sonra isə böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Vurğulamaq lazımdır ki, hər bir ölkənin özünün iqtisadi təhlükəsizliyini təmin etməsi üçün alternativ marşrutları olmalıdır. Bakı-Tbilisi-Qars dəmir yolunun açılması Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini daha da sürətləndirəcək, ölkəmizin iqtisadi əlaqələrini gücləndirəcək və Azərbaycanın regionda strateji, tərəfdaş kimi rolunun daha da artmasına xidmət edəcəkdir.

Bu gün ölkənin polad magistralı özünün ən yüksək inkişaf mərhələsini yaşayır. Ölkə başçısı tərəfindən son vaxtlar dəmir yolunun inkişafı baxımından qarşıya qoyulmuş əsas məqsəd və vəzifələr, infrastruktur layihələri "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyi tərəfindən vaxtında və yüksək keyfiyyətlə həyata keçirilir və dəmir yolu öz simasını tamamilə dəyişir, müasirləşir, "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanov qeyd etmişdir ki, bütün bunlar Prezident İlham Əliyevin qətiyyəti və möhkəm idarəsi sayəsində reallaşır. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu milli inkişaf modeli və strategiyası uğurla davam etdirilir.

Sevindirici haldır ki, dahi öndər Heydər Əliyevin strateji inkişaf kursu onun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müasir dövrün tələbləri nəzərə alınmaqla uğurla davam etdirilir. Azərbaycan günü-gündən inkişaf edir, müasirləşir, insanların sosial vəziyyəti daha da yaxşılaşır.

**Məhərrəm MƏMMƏDOV,**
**iqtisadçı-ekspert, fəxri dəmiryolçu.**